https://doi.org/10.59849/3006-1342.2024.2.10
UOT 94

*G.A.Allahverdiyeva*
*Gəncə Dövlət Universiteti*
*Gəncə ş., H.Əliyev pr., 429*
*E-mail: gultekin.gultekin@list.ru*

# RUS-TÜRK MÜHARİBƏSİNİN (1787-1791) ŞİMALİ QAFQAZ ÜÇÜN NƏTİCƏLƏRİ

*XVIII əsrin II yarısında Rusiyanın Qafqazda müstəmləkəçilik siyasətinin güclənməsi iki rus-türk müharibələrinə səbəb olmuşdu. 1774-cü il Kiçik-Qaynarca sülh müqaviləsinə əsasən Kabarda və Osetiya Rusiyaya birləşdirildi, Kuban noqaylarının şərti olaraq müstəqilliyi tanındı. Bu müqavilə Şimali Qafqazın beynəlxalq hüquqi status məsələsinin həllinin Rusiya-Qafqaz münasibətlərindən çox, böyük dövlətlərin siyasətindən asılı olduğunu bir daha təsdiqlədi. Rusiyanın Qara dənizə çıxış əldə etməsi və Krımın birləşdirilməsi, beynəlxalq siyasətin mühüm hadisələrinə çevrildi. Rusiyanın Avropada nüfuzunun artması, Osmanlı impariyası ilə münasibətlərinin kəskinləşməsi Qafqazda yeni müharibələrə yol açdı və Şimali Qafqaz xalqlarının azadlıq mübarizəsinin başlanmasına səbəb oldu. Şimali Qafqaz xalqlarının milli-azadalıq mübarizəsinin başlanması Şeyx Mənsur hərəkatında özünü göstərdi. Şeyx Mənsurun başçılığı ilə çeçen xalqının çarizmə və yerli feodal aristokratiyasına qarşı başladığı üsyan qisa zamanda Şimali Qafqaz xalqlarını mübarizəyə qaldıra bildi. 1787-ci ildə II Yekaterinanın Krıma səfəri, Azov-Mozdok sərhəd xəttinin inşa edilməsi və bütövlükdə Rusiyanın Qafqazda müstəmləkəçilik siyasətinin fəallaşması yeni rus-türk müharibəsinə yol açdı.1787-1791-ci il rus-türk müharibəsində Osmanlı dövləti məğlub olaraq, 1791-ci il Yassı müqaviləsini imzaladı. Yassı sülhü 1774-cü il müqaviləsinin şərtlərini təsdiqlədi, Dnestr çayı üzərində sərhədlər müəyyənləşdirdi, Osmalı dövləti Gürcüstana iddialarından imtina etdi. Rusiya Qara dənizdə mövqelərinin möhkəmlənməsinə baxmayaraq, dənizə sərbəst çıxış əldə etmədi. Rusların Qara dənizdə mövqelərinin möhkəmlənməsi Osmanlı dövlətinin təhlükəsizliyinə böyük təhlükə yaradırdı. Rusların Qafqazda müstəmləkəçilik siyasəti dağlıların etirazına və üsyanlara səbəb oldu. Beləliklə, Yassı sülhünü imzalayaraq hər iki tərəf yeni müharibə üçün zaman qazandı.*

*Açar sözlər:* Rusiya, Şimali Qafqaz, Krım xanlığı, sülh müqaviləsi, Mənsur, müstəmləkə

## *Giriş*

Müasir tarix elminin inkişafının əsas amillərindən biri ideoloji və siyasi təsirdən azad olunmasıdı. Müasir zamanda, müxtəlif dövrlərdə baş vermiş hadisələrin yenidən araşdırılmasına və təhlil edilməsinə tələbat artır. Postsovet dövründə Qafqaz xalqlarının tarixi keçmişinə maraq getdikcə artır. Qafqaz tarixinin aktual problemlərindən biri də XVIII əsrin II yarısında baş vermiş rus-türk müharibələrinin Qafqaza, xüsusilə də Şimali Qafqaz xalqlarının tarixinə təsiridi. XVIII əsrin ikinci yarısından başlayaraq Osmanlı imperiyası və Rusiyanın siyasi maraqlarının kəsişməsində Qafqaz məsələsi var idi. Rusiya XVIII əsrin əvvəlindən başlayaraq bu regionda möhkəmlənməyə çalışırdı. Lakin, məhz II Yekaterinanın dövründən başlayaraq Rusiya Qafqazda strateji mövqelərə sahib oldu. II Yekaterinanın Şimali Qafqaz siyasəti yerli xalqları imperiyanın təsir dairəsinə cəlb etməyə çalışırdı. Bununla belə, yerli dağlı cəmiyyətlərin, Osmanlı dövlətinin, Rusiyanın, Qacarlar dövlətinin maraqlarının toqquşması bu prosesi ləngidirdi. Rusiyanın Şimali Qafqaz siyasəti Şərq məsələsinin bir

hissəsi idi və Rusiya bu məsələdə xüsusilə dağlı xalqlarla münasibətlərinə son dərəcə diqqət yetirirdi [1].

Rusiyanın Şimali Qafqazda möhkəmlənmək cəhdləri rus-türk (1768-1774) müharibəsinə səbəb oldu. Bu müharibədə Rusiyanın əsas məqsədi Krım xanlığının Osmanlı dövlətindən asılılığına son qoyaraq, öz təsir dairəsinə cəlb etmək idi. Eyni zamanda Ruisya cənub sərhədlərinin təhlükəsizliyini təmin etməyə çalışırdı. Osmanlı dövləti müharibədə məğlub olaraq, Kiçik Qaynarca müqaviləsini imzaladı. Karlovitsa müqaviləsindən sonra Kiçik Qaynarca sülhü Osmanlı dövləti tərəfindən imzalanan ən ağır şərtləri olan müqavilə idi. Məhz bu sülh müqaviləsindən sonar, Osmanlı dövlətinin beynəlxalq nüfuzu zəiflədi, Qara dənizdə osmanlıların hökmranlığına son qoyuldu. Lakin bu müqavilə ilə Rusiya və Osmalı dövlətləri arasında münaqişə və müharibələr bitmədi. Kiçik Qaynarca müqaviləsindən sonra Rusiya Qara və Azov dənizlərində qəti olaraq möhkəmləndi.

Krım xanlığının Osmanlı dövlətindən asılılığına son qoyuldu. Rusiya bu müharibədə qarşısına qoyduğu məqsədlərə çatdı. Rusiyanın cənub sərhədləri möhkəmləndi, Şimali Qafqazda Rusiyanın siyasi aktivliyi üçün yeni perspektivlər yaranırdı. Lakin Osmanlı dövləti sülhün şərtlərini yerinə yetirməyə tələsmirdi, osmanlılar Krım xanlığının vassal asıllığını yenidən bərpa etməyə çalışırdı. Hər iki dövlət üçün Krım strateji əhəmiyyət kəsb edirdi. Rusiyanın Şimali Qafqaza ekspansiyasının qarşısında Krım xanlığı ciddi maneə idi. Osmanlı höküməti Krım xanlığı uğrunda mübarizə aparmaqla bərabər Kuban və Taman yarımadasına da xüsusi diqqət yetirirdi. Məhz bu səbəbdən osmanlılar, müqavilənin şərtlərinə baxmayaraq, Taman ərazisindən qoşunlarını çıxarmağa tələsmirdilər. Osmanlı dövləti Taman, Kinburnu, Kerç və Yeniqalanın qaytarılmasını tələb edirdi [2, s. 324]. Krım xanlığı uğrunda siyasi mübarizə getdikcə kəskinləşirdi. 1775-ci ildə Osmanlı dövlətinin dəstəyi ilə Dövlət Gəray Krım xanı elan edildi. İlk olaraq Dövlət Gəray xan 1772-ci ildə Rusiya ilə imzalanmış müqavilədən imtina etdi və rus qarnizonlarını Yeniqala və Kerç ərazisindən çıxarmağa çalışdı. Dövlət Gəray xanın əsas məqsədi Krım xanlığını yenidən Osmanlı dövlətinin asıllığına qaytarmaq idi [3, s. 57]. Rusiya bunun qarşılığında krım taxtına Şahin Gərayı yeni namizəd olaraq irəli sürdü [4, s. 53]. Öz məqsədlərinə çatmaq üçün Rusiya kuban noqaylarından istifadə etməyə çalışırdı. Yerli xalqların dəstəyi ilə( abazin, temirqoylar, şapsut və s.)

Osmanlı dövləti Rusiyanın planlarının qarşısını aldı. Qeyd etmək lazımdır ki, Rusiya siyasi məqsədlərinə çatmaq üçün yerli xalqların arasında birliyin olmamasından məharətlə istifadə edirdi [5, s. 68]. 1777-ci ilin əvvəlində Rusiyanın dəstəyi nəticəsində Şahin Gəray Kuban xanı seçildi, mart ayında Krım divanı Şahin Gərayı Krım xanı elan etdi [6, s. 28]. Beləliklə, Rusiya Krım xanlığını öz nəzarətində qoruyub saxlaya bildi. 1777-ci ilin yazında knyaz Q.A. Potyomkin imperatriça II Yekaterinaya göndərdiyi məktubda qeyd edirdi ki, Şimali Qafqazda Rusiyanın müstəmləkəçilik siyasətini və iqtisadi təsirini gücləndirmək üçün Don çayında və Terek çayının aşağı axarında müdafiə xətləri inşa etmək məqsədəuyğundu. Belə olan halda Azov sahillərindən Mozdok qalasına qədər ərazidə Rusiya möhkəmlənəcək [7, s.24]. Knyaz Q.A. Potyomkin 1777-ci ilin yayına qədər Qafqaz admistrasiyasından müdafiə xətlərinin tikintisini yekunlaşdırmağı tələb edirdi. 1777-1783-cü illərdə Şimali Qafqazda iki müdafiə xətti inşa edilmişdi. Sonralar bu müdafiə xətlərini genişləndirərək Qafqaz müdafiə xətti yaradılmışdı. XVIII əsrin 80-90-cı illərində Şimali Qafqaza dövlət kəndlilərinin, kazakların köçürülməsi başlamışdı. Rusiya miqrantların məskunlaşması hesabına yeni ərazilərin iqtisadi inteqrasiyasını surətləndirirdi. Rusiyanın cənub sərhədlərinin genişlənməsi və Qafqazda möhkəmlənməsi Avropa dövlətlərini də narahat edirdi. Osmanlı tərəfdarları yerli xalqları rus hərbi qarnizonlarına və müdafiə qalalarına hücüm etməyə çağrırdılar. Kubanda rus hərbi qalalarının tikintisi adıqların narazılığına səbəb oldu. Bundan başqa, noqaylar, çərkəzlər və kabardinlər 1779-cu ilin yayında Kubanda qalaların

mühasirəsində iştirak etmişdilər [8, s.111]. Rus hakim dairələri bilirdilər ki, hərbi əməliyyatlarla məsələni həll etmək olmaz. Osmanlılar isə yeni müharibəyə hazırlaşırdılar. XVIII əsrin 80-ci illərində Rusiya Krım xanlığının birləşdirilməsi və Georgiyevsk traktatının (1783-cü il) imzalanması ilə planlı şəkildə Qafqaza müdaxilə edir və bununlada İran və Osmanlı dövlətlərinin ciddi narazılığına səbəb olurdu. Rusiya dövlətinin cənubunda Şimali Qafqaz regionu geostrateji əhəmiyyət kəsb edən bir bölgə idi. Qara və Xəzər dənizləri arasındakı bölgədə hər hansı bir dövlətin möhkəmlənməsi Ön və Mərkəzi Asiya xalqlarının həyatında hakim mövgeqə sahib ola bilərdi.

Şimali Qafqazın böyük hissəsinə nəzarət edən Rusiya hakim dairələri 1785-ci il 5 may fərmanına əsasən bu ərazilərdə Qafqaz canişinliyini yaratdı (Qafqaz və Həştərxan). Qafqaz canişinliyinin yaranması Şimali Qafqazın çöl hissəsini Rusiya imperiyasının inzibati sisteminə daxil etdi [9, s. 23]. Rusiyanın Şimali Qafqaza müdaxiləsi dağlıların müqavimətini gücləndirdi. 1785-ci ildə Çeçenstanda Rusiyaya qarşı etiraz çıxışları başladı. Bu çıxışlar genişlənərək qısa zamanda böyük üsyana yol açdı. Şimali Qafqaz xalqlarının azadlıq hərəkatına Uşurma (şeyx Mənsur) rəhbərlik edirdi. 1785-1791-ci illəri əhatə edən şeyx Mənsur hərəkatının dərin sosial-iqtisadi kökləri var idi. Üsyan şimal-.şərqi Qafqazda yaşayan xalqları öz ətrafında birləşdirdi (çeçenlər, kabardalılar, kumıklar, noqaylar və s.). Uşurma hərəkatı əsasən rusların işğalçılıq siyasətinə qarşı idi, eyni zamanda antifeodal xarakter də daşıyırdı. Osmanlı dövləti tərəfindən dəstəklənən hərəkat Şimali Qafqazda Rusiya üçün ciddi təhlükəyə çevrilmişdi [1, s. 34]. Şeyx Mənsur dağlı xalqlarını islam dini, torpağı və azadlığı uğrunda fəal mübarizəyə çağırdı. O, çıxışlarında islam dininin əsas ehkamlarını təbliğ edirdi və kafirlərə qarşı "müqəddəs müharibə"yə qalxmağın vacibliyini qeyd edirdi. Xalqı zülm və ədalətsizliyə qarşı mübarizəyə çağırırdı. Bütün əhalini kafirlərə və rus çarizminə qarşı "müqəddəs müharibə" - qəzavat aparmağa çağırırdı. Uşurma üsyanını Osmanlı dövləti də dəstəkləyirdi. Osmalı imperiyası Rusiyaya qarşı müharibəyə dağlı xalqlarını da cəlb etməyə çalışırdı. (Şeyx Mənsur hərəkatı Qafqaz xalqlarının milli-azadlıq mübarizəsinin əsasını qoydu, islam dini yerli xalqları birləşdirən amilə çevrildi, lakin çox hallarda dini ideologiya azadlıq hərəkatının siyasi məqsədlərini kölgədə qoyurdu.) 1791-ci ildə Anapa qalası yaxınlığında üsyançılar məğlub edildi və şeyx Mənsur əsir götürülərək Şlisselburq qalasına göndərildi. Dağlı xalqlarının siyasi pərakəndəliyinə baxmayaraq, şeyx Mənsur hərəkatı dağlıların çarizmə qarşı ilk çıxışı idi və azadlıq uğrunda uzun mübarizə tarixinin əsasını qoydu.

Osmanlı imperiyası kiçik Qaynarca sülhünün nəticələri ilə razılaşmayaraq və Qərb dövlətlərinin ( İngiltərə və Fransa) dəstəyinə arxalanaraq 1787-1791-ci illərdə Rusiyaya yeni müharibə elan etdi. Müharibənin başlanması Uşurma üsyanı ilə eyni zamana təsədüf etdiyindən sultan I Əbdülhəmid üsyançılarla birgə hərbi əməliyyatların aparılmasını məqsədəuyğun hesab edirdi. Lakin daglılar arasında birliyin olmaması istənilən nəticəni vermədi. Şimali Qafqaz xalqlarının bir hissəsi Rusiya himayəsini qəbul edirdilər. Knyaz Q.A.Potyomkin 1 dekabr 1787-ci ildə İmperatriça II Yekaterinaya göndərdiyi məktubda yazırdı ki, "çərkəzlərin bir hissəsi Qafqaz quberniyasına köçürülüb, abazinlər və noqaylar Rusiya tərəfinə keçiblər" [4, s. 29]. 1790-1791-ci illərdə aparılan hərbi əməliyyatlar osmanlılar üçün istənilən nəticəni vermədi. 1790-cı ildə Batal paşanın ordusu general İ.German tərəfindən məğlub edildi, Batal paşa əsir götürüldü. Bu zaman Uşurma Çeçenstanda idi və ruslara qarşı mübarizəsini davam edirdi. Üsyançılar və osmanlı ordusu ayrı-ayrılıqda döyüşlərdə iştirak etdikləri üçün məğlubiyyət qaçılmaz idi. 1791-ci ildə Qafqaz xəttinə yeni komandan təyin edildikdən sonra ruslar cəbhədə strateji üstünlük qazandı. Qafqaz və Kuban korpusunun komandanı general-anşef İ. Qudoviç Anapa istiqamətində yeni hücüm əməliyyatı başlayaraq Anapa qalasını ala bildi. Şeyx Mənsur əsir düşdü və 1794-cü ildə həbsdə vəfat etdi [4, s. 48].

*Nəticə*

1791-ci ildə Yassı müqaviləsi imzalandı. Yassı sülhü 1774-cü il müqaviləsinin şərtlərini təsdiqlədi, Dnestr çayı üzərində sərhədlər müəyyənləşdirdi, Osmalı dövləti Gürcüstana iddialarından imtina etdi. Rusiya Qara dənizdə mövqelərinin möhkəmlənməsinə baxmayaraq, dənizə sərbəst çıxış əldə etmədi. Qeyd etmək lazımdır ki, Rusiya imperiyası Kabarda, Balkariya və Osetiyanı Rusiya birləşdirdi. Şimali Qafqazda zəbt etdiyi ərazilərdə Rusiya imperiyası möhkəmlənirdi. Şimali Qafqaz və bütövlükdə Qafqaz uğrunda Rusiyanı hələ uzun mübarizə gözləyirdi.

ƏDƏBİYYAT

1. Брикнер А.Г. История Екатерины второй. М., 2002.
2. Архив государственного совета (АГС). СПб., 1869. Т. 1. Ч. 1.
3. Кидирниязов Д.С. Ногайцы в XV–XVIII вв. (Проблемы политических, экономических и культурных взаимоотношений с сопредельными странами и народами). Дис… на соиск. ученой степени докт. историч. наук. Махачкала, 2001.
4. Сборник Русского исторического общества (Сб. РИО). СПб., 1911. Т. 135. Ч. 8.
5. Присоединение Крыма к России. СПб., 1885. Т. 1. 873 с.
6. Надинский П. Суворов в Крыму. Симферополь, 1950. 78 с.
7.Фадеев А.В. Очерки экономического развития степного Предкавказья в дореформенный период. М., 1957. 257 с.
8 . Смирнов Н.А. Политика России на Кавказе в XVI–XIX вв. М., 1958. 244 с.

УДК 94

*Г.А.Аллахвердиева*
*Гянджинский Государственный Университет*

## ИТОГИ РУССКО-ТУРЕЦКОЙ ВОЙНЫ (1787-1791) ДЛЯ СЕВЕРНОГО КАВКАЗА

*РЕЗЮМЕ*

*Ключевые слова:* Россия, Северный Кавказ, Крымское ханство, мирный договор, Мансур, колония

Усиление колониальной политики России на Кавказе во второй половине XVIII века стало причиной двух русско-турецких войн. По Кючук-Кайнарджийскому мирному договору 1774 года к России были присоединены Кабарда и Осетия, условно была признана независимость кубанских ногайцев. Этот договор еще раз подтвердил, что решение вопроса о международно-правовом статусе Северного Кавказа зависит не от российско-кавказских отношений, а от политики великих держав. Завоевание Россией выхода к Черному морю и присоединение Крыма стали важными событиями международной политики. Рост влияния России в Европе, обострение отношений с Османской империей привели к новым войнам на Кавказе и спровоцировали начало освободительной борьбы народов Северного Кавказа. Начало национально-освободительной борьбы народов Северного Кавказа проявилось в движении шейха Мансура. Направленное против царизма и местной феодальной аристократии восстание, начатое чеченским народом под предводительством шейха Мансура, в короткие сроки сумело поднять народы Северного Кавказа на борьбу. Посещение в 1787 году Екатериной II Крыма, строительство Азово-Моздокской пограничной линии

и активизация колониальной политики России на Кавказе в целом открыли путь к новой русско-турецкой войне. Потерпев поражение в войне 1787-1791гг., Османское государство подписала Ясский договор. Яссинский мир подтвердил условия договора 1774 года, установил границы по реке Днестр, Османское государство отказалось от претензий на Грузию. Несмотря на укрепление своих позиций на Черном море, Россия не получила свободного выхода к морю. Усиление позиций России на Черном море представляло большую угрозу безопасности Османского государства. Колониальная политика России на Кавказе привело к восстаниям и протесту горцев. Таким образом, подписав Яссинский мир, обе стороны выиграли время для новой войны.

UDC 94

*G.A.Allahverdiyeva*
*Ganja State University*

THE RESULTS OF THE RUSSIAN-TURKISH WAR (1787-1791) FOR THE NORTH CAUCASUS

*SUMMARY*

*Key words:* Russia, North Caucasus, Crimean Khanate, peace treaty, Mansur, colony

The strengthening of Russia's colonial policy in the Caucasus in the second half of the XVIII century caused two russian-turkish wars. According to the Kyuchuk-Kaynardzhi Peace Treaty of 1774, Kabarda and Ossetia were annexed to Russia, and the independence of the Kuban Nogais was conditionally recognized. This treaty once again confirmed that the solution of the international legal status of the North Caucasus issue does not depend on russian-caucasian relations, but on the policy of the great powers. Russia's conquest of access to the Black Sea and the annexation of Crimea have become crucial events in international politics. The growing influence of Russia in Europe, the aggravation of relations with the Ottoman Empire led to new wars in the Caucasus and provoked the beginning of the liberation struggle of the peoples of the North Caucasus. The beginning of the national liberation struggle of the peoples of the North Caucasus manifested itself in the movement of sheikh Mansour. The uprising directed against tsarism and the local feudal aristocracy, launched by the Chechen people under the leadership of sheikh Mansur, in a short time managed to rouse the peoples of the North Caucasus to fight. The uprising directed against tsarism and the local feudal aristocracy, launched by the Chechen people under the leadership of sheikh Mansur, in a short time managed to rouse the peoples of the North Caucasus to fight. Catherine II's visit to Crimea in 1787, the construction of the Azov-Mozdok border line and the intensification of Russia's colonial policy in the Caucasus as a whole opened the way to a new russian-turkish war. Having been defeated in the war of 1787-1791, the Ottoman state signed the Treaty of Iasi. The Yassin Peace confirmed the terms of the 1774 treaty, established borders along the Dniester river, and the Ottoman state renounced its claims to Georgia. Despite strengthening its position on the Black Sea, Russia has not received free access to the sea. The strengthening of Russia's position on the Black Sea posed a great threat to the security of the Ottoman state. Russia's colonial policy in the Caucasus led to uprisings and protest by the highlanders. Therefore, by signing the Peace of Yassin, both sides gained time for a new war.

***Daxil oldu: 18.09.2024-cü il***